# Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü ilə bağlı tədbir keçirilib





Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 27-ci ildönümü münasibətilə noyabrın 20-də YAP Səbail rayon təşkilatının qərargahında konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə YAP-ın ölkəmizin ictimai-siyasi həyatında genişmiqyaslı fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Sonra partiyanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin və 1991-ci il noyabrın 20-də baş vermiş Qarakənd faciəsi zamanı həlak olan şəxslərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransı açıq elan edən YAP Səbail rayon təşkilatının sədri, professor Şəmsəddin Hacıyev Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının ölkəmizin müasir tarixində mühüm rol oynadığını vurğulayıb.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov çıxış edərək YAP-ın yaranma tarixi, keçdiyi şərəfli yol və bu gün qazandığı möhtəşəm nailiyyətlərdən danışıb. O bildirib ki, YAP-ın yaranması, keçdiyi şərəfli tarixi yol Azərbaycanın ən önəmli hadisələri sırasındadır. YAP təkcə Azərbaycan tarixində deyil, müasir dünyada ən uğurlu siyasi təşkilatlardan biri hesab oluna bilər.

Yeni Azərbaycan Partiyasının yaranma səbəblərini və həmin dövrün ictimai-siyasi xarakterini izah edən E.İbrahimov vurğulayıb ki, Azərbaycan 1990-cı illərin əvvəllərində uçurum qarşısında idi. Belə bir vəziyyətdə Azərbaycanın xilas yolunu Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışında görən ziyalılar 1992-ci ilin oktyabrında Ulu Öndərin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması təşəbbüsünü irəli sürdülər. Xalqın səsini Ulu Öndər Heydər Əliyevə çatdıran tanınmış ziyalıların bu müraciətinə müsbət cavab verən Ümummilli Liderin rəhbərliyi ilə 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsi, daha sonra Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi.

Bildirilib ki, Heydər Əliyev siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi YAP-ın sonrakı inkişafını şərtləndirən əsas amil olub. YAP-ın əldə etdiyi qələbələr Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətlə və bu siyasətə vətəndaşlarımızın münasibətinin yüksək olması ilə bilavasitə əlaqədardır.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Elçin Əhmədov və YAP Səbail rayon təşkilatının fəal gənci, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbə-rektoru Cavidan Adilzadə çıxış ediblər.

Konfransa yekun vuran Şəmsəddin Hacıyev vurğulayıb ki, 1992-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması ölkəmizin tarixində ən şərəfli hadisələrdən biridir.

Xüsusi vurğulanıb ki, Ulu Öndər ölkədə ictimai-siyasi sabitliyi təmin etdikdən sonra Azərbaycanın çoxşaxəli inkişaf strategiyasını müəyyənləşdirdi. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət bu gün partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasət nəticəsində dünyanın nüfuzlu ölkələri sırasında yer alan Azərbaycan regionun lider dövlətinə çevrilib, ölkəmizin beynəlxalq aləmdə mövqeyi xeyli güclənib.

Tədbirdə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan təmsilçisi professor Elçin İsgəndərzadə YAP Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyevin Beynəlxalq Türk Akademiyasının həqiqi üzvü seçildiyini vurğulayaraq Akademiyanın "Qızıl ulduz" medalını ona təqdim edib.

Tədbirdə Dövlət İdarəçilik Akademiyasında partiyanın ərazi ilk partiya təşkilatının sədri olmuş Yusif Zeynalov bu sahədəki fəaliyyətinə görə təltif olunub.

# YAP-ın yaranmasının 27-ci ildönümü münasibətilə Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində tədbir keçirilib



Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasının 27-ci ildönümü münasibətilə Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində tədbir keçirilib. YAP Laçın rayon təşkilatının təşkilatçılığı ilə keçirilən tədbirin iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra tədbiri giriş sözü ilə açan Laçın rayon İcra Hakimiyyəti başçısının müavini - Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının sədri İlqar İlyasov partiyanın keçdiyi şərəfli yoldan, ötən dövr ərzində qazandığı uğurlardan danışıb. Bildirilib ki, dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanda ictimai-siyasi gərginlik, vətəndaş qarşıdurması, iqtisadi böhran getdikcə dərinləşir, hakimiyyət uğrunda mübarizə gedirdi. Azərbaycanın dövlət müstəqilliyinin itirilməsi təhlükəsi ilə üzüzə qaldığı belə bir dövrdə xalq yeganə xilas yolunu Heydər Əliyev dühasında, Heydər Əliyevin böyük dövlətçilik təcrübəsində görürdü. Xalqın geniş təbəqəsinin istəyini ifadə edən 91 nəfər ziyalı 1992-ci ilin oktyabrında Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Ulu Öndər çox keçmədən xalqa dövlətçiliyimiz üçün "Yeni, müstəqil Azərbaycan uğrunda" adlı çox əhəmiyyətli çağırış ünvanladı. Partiyanın təsis konfransı 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirildi və Heydər Əliyev YAP-ın Sədri seçildi.

Eyni zamanda, bildirilib ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan dövlətinin qurucusu və memarı Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan siyasət bu gün partiyamızın Sədri, Prezident İlham Əliyev tərəfindən davam etdirilir.

Digər çıxış edənlər Azərbaycan dövlətçiliyinin formalaşmasında, ictimai-siyasi sabitliyin bərqərar olmasında, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında YAP-ın mühüm rolu və xidmətlərindən danışıblar. Çıxışlarda Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, son 16 ildə ölkəmizdə bütün sahələrdə möhtəşəm nailiyyətlərin əldə olunduğu vurğulanıb.

Tədbirdə Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilmiş bir qrup laçınlı gənclərə partiyanın üzvlük vəsiqələri təqdim olunub.

# Britaniyalı mütəxəssislər: Bakıdakı layihə uğurla həyata keçirilir



Artıq 4 aydır ki, Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti tərəfindən Böyük Britaniyanın "Mott MacDonald" şirkəti ilə birgə hazırlanmış yeni pilot layihənin - bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin ən müasir səviyyədə təşkil edilməsi layihəsinin paytaxtın Nərimanov rayonunda icrası həyata keçirilir. Ötən müddət ərzində görülən işlərin yüksək səviyyədə aparılması nəticəsində ciddi irəliləyişlər əldə olunub.

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti və Böyük Britaniyanın "Mott MacDonald" şirkəti ilə birgə hazırlanmış pilot layihənin yekunlarına dair keçirilən mətbuat konfransında Kommunal xidmət müəssisəsinin direktoru İlqar Hüseynov qeyd edib ki, vətəndaşlara izahetmə işləri, maarifləndirici tədbirlər, mətbuatda geniş yayımlanma öz bəhrəsini verib. Layihəyə əsasən Nərimanov rayonunda 400-ə yaxın konteyner meydançası yaradılıb, burada tələbata uyğun miqdarda yeni konteynerlər yerləşdirilib, onların yuyulması və meydançaların dezinfeksiyası təmin edilir.

O qeyd edib ki, bu müddət ərzində şirkətin mütəxəssisləri mütəmadi olaraq pilot layihənin həyata keçirildiyi Nərimanov rayonunda tullantıların tərkibinin və digər komponentlərin öyrənilməsi və nəticələrini daha da artırılmasının yollarını araşdırıb, müvafiq təlimatlar veriblər.

İ.Hüseynov əlavə edib ki, layihənin növbəti mərhələsinə keçidlə bağlı "Mott MacDonald" şirkətinin rəhbərliyinin səlahiyyətli nümayəndələri, Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması üzrə islahatlar konsepsiyasının rəhbəri Martin Saymon və Devid Dray Bakıya gəliblər.

Martin Saymon bildirib ki, layihənin ilkin nəticələrini uğurlu saymaq olar. Müqayisə üçün qeyd olunub ki, Birləşmiş Krallığın paytaxtı London şəhərində 20 ildən çox müddətdə icra edilən layihədə təkrar emal üçün çeşidlənən tullantıların həcmi 40 faizə çatıb.

M.Saymon qeyd edib ki, Nərimanov rayonunda 4 ay ərzində bu istiqamətdə görülən işlər nəticəsində bu rəqəm 32 faizə çatıb, kağız və karton tullantıları 25 faiz olub ki, bu yaxşı nailiyyət sayılmalıdır. Əgər layihənin icrasının ilk vaxtlarında gündəlik olaraq 6-7 ton təkrar emala gedən tullantı yığılırdısa, hazırda bu rəqəm 25 tona çatıb. Bu səbəbdən Saymon Nərimanov sakinlərinə minnətdarlığını bildirib.

O əlavə edib ki, gələn ilin aprelindən mərhələli qaydada daha 3 rayonun - Nizami, Yasamal və Nəsimi, sonrakı illərdə daha 3 rayonun mərhələli şəkildə bu layihəyə cəlb olunması nəzərdə tutulur.

Bildiriblər ki, layihənin icrası zamanı bir sıra çatışmazlıqlar da olub. Bəzi sakinlərin laqeydliyi, tullantıları hara gəldi atması, meydançalardakı nəzarətçilərin işinə aqressiv yanaşmaları, hərəkətləri ilə prosseslərin tam yerinə yetirilməsinə maneçilik törətmələri bu hallardandır ki, onları da geniş maarifləndirmə və izahetmə işləri ilə aradan qaldırmaq olar.

Mütəxəssislər qeyd edib ki, bu gün ətraf mühitin çirklənmədən qorunması çox mühüm əhəmiyyət kəsb edir. Nəzərdə tutulan işlərin uğurla həyata keçirilməsi Bakı şəhərini aparıcı Avropa dövlətlərinin paytaxtları və iri şəhərləri səviyyəsinə çatdıracaq, ətraf mühitə böyük müsbət təsir göstərərək, həm də Bakı şəhəri üçün iqtisadi faydalar verəcək.

# Şəmkir rayonunda Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü qeyd edilib



Dünən Yeni Azərbaycan Partiyasının (YAP) Şəmkir rayon təşkilatında partiyanın yaradılmasının 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə çıxış edən YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev YAP-ın yaranma tarixi, keçdiyi şərəfli yol və qazandığı nailiyyətlər barədə danışıb. F.Vəliyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaranan Yeni Azərbaycan Partiyası özünün 27 illik fəaliyyəti dövründə çox böyük işlər görüb. Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaransa da, indiki bəzi müxalifət partiyalarından fərqli olaraq, Azərbaycan dövlətçiliyinə, milli maraqlara müxalifətdə olmayıb, ölkəni təhlükəli həddə çatdıran iqtidara müxalifətdə olub. Onun sözlərinə görə, xalqın Ulu Öndər Heydər Əliyevin idarəçilik qabiliyyətinə inamı bu partiyanın tez bir zamanda təşkilatlanmasına, sıralarının genişlənməsinə səbəb olub.

Çıxış edən YAP Şəmkir rayon təşkilatının sədr müavini Məcid Şıxlinski bildirib ki, öz gücünü xalqın dəstəyindən alan Yeni Azərbaycan Partiyası ölkəmizdə davamlı islahatların həyata keçirilməsinə, ictimai-siyasi sabitliyin qorunmasına, Azərbaycanın inkişafına, dövlət müstəqilliyimizin güclənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun artmasına milsilsiz töhfələr verib.

YAP Şəmkir rayon təşkilatının fəalı Famil Həmidov çıxış edərək dövlət müstəqilliyimizin, partiya maraqlarının müdafiəsində, qorunmasında və inkişaf etdirilməsində gənclərin qarşısında duran mühüm vəzifələrdən danışıb.

Sonda çıxış edən YAP Şəmkir rayon təşkilatı Düyərli kənd ərazi ilk partiya təşkilatının sədri Aybəniz Nəsibova qeyd edib ki, Yeni Azərbaycan Partiyası bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə Ümummilli Lider Heydər Əliyevin ideyalarını, məqsəd və məramlarını rəhbər tutaraq Azərbaycanın çiçəklənməsinə və dövlətçiliyimizin qüdrətlənməsinə böyük töhfələr verəcək.

Tədbirin sonunda partiyanın həyatında yaxından iştirak edən YAP fəalları rayon təşkilatı tərəfindən fəxri fərmanlarla təltif olunublar.

# Samuxda YAP-ın yaradılmasının 27-ci ildönümü münasibətilə tədbir keçirilib






Dünən Yeni Azərbaycan Partiyası (YAP) Samux rayon təşkilatının qərargahında YAP-ın yaradılmasının 27-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə YAP-ın yaradıcısı, böyük dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək əziz xatirəsinə ehtiramlarını ifadə ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən YAP Prezident İlham Əliyevin Sədrliyi ilə ötən müddət ərzində böyük inkişaf yolu keçib: **"YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin partiyaya Sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət idi. Xalqın Ümummilli Lider Heydər Əliyevə olan inamı isə tez bir zamanda siyasi səhnədə parlayan Yeni Azərbaycan Partiyasının tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan verdi. Ümummilli Liderimizin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi yüksək etimad YAP-ın qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı".**

Tədbirdə çıxış edən Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev isə bildirib ki, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu YAP ötən 27 il ərzində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli dövlətçiliyimizin əsaslarının gücləndirilməsində, inkişafa, sabitliyə, tərəqqiyə xidmət edən milli məqsədlərin reallaşdırılmasında və yeni hədəflərin müəyyənləşdirilməsində misilsiz xidmətlər göstərib.

Sonra YAP Samux rayon təşkilatının Qadınlar Şurasının sədri Kəmalə Xəlilova, Samux şəhər 2 saylı uşaq bağçasının direktoru Aytən Məmmədova, YAP Samux rayon təşkilatı Gənclər Birliyinin üzvü Rasim İmamquliyev, İnstitut qəsəbə tam orta məktəbin müəllimi Züleyxa Namazova və Lək kənd tam orta məktəbin müəllimi Ülviyyə Qasımova çıxış edərək partiyanın yaranma tarixi, onun keçdiyi şərəfli inkişaf yolu haqqında fikirlərini bildiriblər.

Tədbirin sonunda ictimai-siyasi fəallığı ilə seçilən bir qrup partiya üzvünə fəxri fərmanlar və hədiyyələr, həmçinin partiya sıralarına yeni qəbul edilən şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

# Rasim Quliyev: YAP tarixi zərurət, sosial sifariş əsasında yaranıb



**"Yeni Azərbaycan Partiyası (YAP) tarixi zərurət, sosial sifariş əsasında yaranmış, xalqın, şəxsiyyət ətrafında toplaşmış insanların ideya birliyi idi".** Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının funksioneri, siyasi ekspert Rasim Quliyev deyib.

YAP-ın yaranma tarixinə nəzər salan ekspert xatırladıb ki, Azərbaycan xalqı Sovet imperiyasında mövcud ayrı-seçkilik münasibətinə, ermənilər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən vəhşiliklərə etiraz olaraq ilk dəfə 1988-ci ilin noyabrın 17-dən başlayaraq kütləvi şəkildə mübarizəyə qalxdı: **"O zamana qədər Sovet imperyasında xalqın belə açıq şəkildə mübarizəsi çox nadir halda, bəzi respublikalarda epizodik şəkildə baş vermişdi. Ancaq Azərbaycan xalqı kütləvi mübarizəyə qalxdı və dekabrın 4-dən 5-nə keçən gecə sovet əsgərləri nümayişçilərə güc tətbiq etdi. Həmin dövrdə həm mənəvi, həm də psixoloji şəkildə Sovet imperiyasının "dəyənəyini yedikdən" sonra xalq özünün liderini, güvənəcəyi şəxsi mübarizə meydanında görmədi və xalq hərəkatının böyük dalğası 1989-cu ilin sonunda yenidən gücləndi. Həmin ilin dekabrın sonunda Azərbaycanda Sovet sərhədlərinin sökülməsi ilə vüsət alan xalq hərəkatı yeni mərhələyə qədəm qoydu. Xalqımız dekabrın 31-də yenidən həmrəylik göstərərək böyük izdihamla mübarizəyə qalxdı. 1990-cı ilin yanvarın 20-sində isə xalqımız artıq imperiyanın dəyənək zərbəsini deyil, açıq qətliam zərbəsini aldı. Məhz bundan sonra Azərbaycan xalqı özünün liderini axtarmağa başladı. Xalq mənəvi şəkildə özünün gücsüz, başsız olduğunu bir daha dərk etdi".**

R.Quliyev söyləyib ki, həmin dövrdə istər Azərbaycanda meydan hərəkatında, istərsə də sonrakı dövrlərdə xalqın tribunasında çıxış etmək istəyən həqiqi ziyalılarla yanaşı, populist mikrafon həvəskarları da var idi: **"Lakin onların heç biri həqiqi liderə çevrilə bilmirdilər. Çünki, xalq onları lider kimi görmürdü. Xalq 1990-cı ildə idarəçiliyinə, əqidəsinə, intellektinə bələd olduğu, tanıdığı Ulu Öndər Heydər Əliyevə yenidən üz tutdu".**

Onun sözlərinə görə, həmin dövrdə xalq yalnız öz Liderini tanıyırdı, Heydər Əliyevi və Onun ətrafında toplaşan insanları qəbul edirdi: **"Bununla da şəxsiyyət ətrafında cəmləşən insanların partiyası yarandı. Bu partiya həmin dövrdə sözsüz ki, cəmiyyətin idarə olunmasında bir təşkilat rolunu oynamaq məqsədi daşıyırdı və həmin məqsədə nail oldu".**

Partiya funksioneri qeyd edib ki, sosial sifarişlə, müxalifət partiyası kimi yaranan YAP-ı daha sonra xalq iqtidarda görmək istədi və nəticədə xalqın dəstəyi ilə partiya iqtidara gəldi: **"YAP Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə Azərbaycanın idarə olunmasında çox böyük siyasi məktəb rolunu oynadı. Tezliklə Azərbaycanda ən böyük sosial bazası, funksional strukturu olan ən ciddi partiya məhz YAP oldu. Eyni zamanda, partiya hazırki müasir inkişaf dövründə yeniləşərək, beynəlxalq münasibətlər sisteminə inteqrasiya edərək regionda ən ciddi, dayanıqlı, struktura malik olmaqla yanaşı, özünün ideoloji prinsipləri, xətti müəyyən olunan, sabit, inkişafda olan mütərəqqi partiyadır. Əhalinin say nisbəti ilə götürsək böyüklüyünə görə bəlkə də Avropada YAP-la rəqabət apara biləcək az sayda partiya tapmaq mümkündür. Bu gün partiya böyük siyasi tədbirləri yüksək səviyyədə təşkil etməklə yanaşı, özünü ən müasir intellektual dəyərlər, modern texnoloji vasitələrlə ifadə edə bilir. Mən bu gün YAP-ı regionda ən böyük, güclü, intellektual səviyyəsi yüksək olan partiya kimi dəyərləndirirəm. Qonşu dövlətlərdə də hazırda YAP-la həm ideya, həm təşkilatçılıq, həm struktur, həm də funksionallıq baxımından rəqabət apara biləcək ikinci partiya görmürəm".**